# Növbədənkənar parlament seçkiləri 2020-ci il fevralın 9-na təyin edildi



**Son prezident seçkilərində qələbə qazanmış cənab İlham Əliyevin keçən il aprelin 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimindəki nitqində anonsunu verdiyi islahatlar bu gün artıq bütün sahələri əhatə edir. Xalq tərəfindən böyük rəğbətlə qarşılanan islahatlar ölkəmizin dünya birliyindəki reytinqini yaxşılaşdırmaqla yanaşı, əhalinin həyat səviyyəsinin yüksəldilməsində də mühüm rol oynayır. Hazırda uğurla həyata keçirilən islahatlar konsepsiyası Nazirlər Kabinetini, məhkəmə-hüquq sistemini və regional idarəetmə orqanlarını da əhatə edir. Təbii ki, bütün bunlar parlamentin də yenilənməsi zərurətini doğurdu. Noyabrın 28-də parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyasının Siyasi Şurası parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi təşəbbüsü də bu zərurətdən yarandı.**

Ölkəmizin sürətli inkişafının təmin olunması üçün islahatların bütün sahələr üzrə aparılması vacibdir. Təbii ki, qanunverici orqan olan Milli Məclisdə də yeniləşmə olmalıdır. Bu baxımdan, Milli Məclisin buraxılması barədə Yeni Azərbaycan Partiyası Siyasi Şurası tərəfindən təşəbbüsün irəli sürülməsi ölkəmizdə aparılan islahatlar kursunun mahiyyətindən, onun fəlsəfəsindən doğan bir zərurət idi. Axı, ölkədə elə bir sfera qalmamışdır ki, islahatlar onu əhatə etməsin. Sosial, iqtisadi, məhkəmə-hüquq sistemində və digər sahələrdə islahatların aparılması artıq öz bəhrəsini verir. Xalq bu islahatların faydasını artıq gündəlik həyatında hiss edir. Ölkəmizin sürətli inkişafının təmin olunması üçün islahatların bütün sahələr üzrə aparılması vacibdir. Bu baxımdan, Milli Məclisin buraxılması təkmilləşmə kursuna, yeni şəraitə, tərəqqiyə uyğun prosesdir.

Radikal müxalifət nümayəndələri növbədənkənar parlament seçkilərinin keçirilməsindən özlərinin siyasi məqsədləri üçün istifadə edərək, müxtəlif bəyanatlar verir, yalan və böhtanlarla çaşqınlıq yaratmaq istəyirlər. Ancaq dünya praktikasına nəzər salsalar, növbədənkənar seçkilərin əksər ölkələrdə keçirildiyinin şahidi olarlar. Bu, dövrün tələbədir.Məsələn, 2015-ci ildən 2019-cu ilə qədər İspaniyada 4 dəfə növbədənkənar parlament seçkiləri keçirilib. Bir neçə gündən sonra Böyük Britaniyada da növbədənkənar parlament seçkiləri keçiriləcək. Belə faktlar onlarcadır. Ona görə də növbədənkənar parlament seçkilərinin keçirilməsini qeyri-adi hadisə hesab etmək olmaz.

Parlamentdə çoxluq təşkil edən Yeni Azərbaycan Partiyası belə bir təşəbbüs irəli sürərək yeni siyasi mədəniyyət nümayiş etdirdi. Azərbaycanın sürətli inkişafı, dünya birliyinə inteqrasiyası, reytinqinin getdikcə yüksəlməsi islahatlara adekvat qanunvericilik bazası yaratmağa imkan verən parlamentin formalaşmasına ehtiyac duyur. Təbii ki, yenidən formalaşacaq islahatçı, təşəbbüskar parlament artıq başlanmış islahatlar prosesinə öz töhfəsini verəcək. Ona görə də Milli Məclisin bu yöndə də mütləq funksionallığı təmin olunmalıdır.

Milli Məclisin dekabrın 2-də keçirilən iclasında parlamentin buraxılması ilə bağlı qərar qəbul olundu. Qərarda parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi üçün Azərbaycan Prezidentinə müraciət edildi. Qeyd olundu ki, Azərbaycan Respublikası Milli Məclisi deputatlarının mütləq əksəriyyətinin parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə qəti mövqeyinin mövcudluğunun parlamentin öz fəaliyyətini davam etdirməsinin qarşısını aldığı nəzərə alınaraq, deputatların ölkə vətəndaşları tərəfindən yenidən seçilməsi zəruridir: "Öz səlahiyyətlərini artıq icra edə bilməməsi şəraitində Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Azərbaycan parlamenti ölkədə aparılan genişmiqyaslı institusional və kadr islahatlarından geri qalmamalı, fəaliyyətini yenidən qurmalıdır. Buna görə də Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş səlahiyyətlərinin yuxarıda qeyd olunan müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yenidən qazanılması üçün Milli Məclis buraxılmalı və parlamentə növbədənkənar seçkilər keçirilməlidir. Yuxarıda şərh edilənlərə əsasən, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq qərara alır: Azərbaycan Respublikası Konstitusiyasının $98^1$-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət edilsin".

Prezident İlham Əliyev deputatların parlamentin buraxılması üçün ona müraciətinin Konstitusiyaya uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinə sorğu göndərdi. Dövlətimizin başçısı sorğuda Milli Məclisin parlamenti buraxmaqla bağlı son qərarı vermək üçün "hazırkı şərtlərdə Milli Məclisin buraxılmasının" Azərbaycan Respublikası Konstitusiyasına uyğun olub-olmadığını bilmək istədiyini deyib.

Dekabrın 4-də Konstitusiya Məhkəməsi Plenumunun iclasında Milli Məclisin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu barəsində Prezidentin sorğusuna baxılıb və Milli Məclisin buraxılması barədə qərar qəbul edilib:

"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli Qərarı Azərbaycan Respublikası Konstitusiyasının $98.^1$-ci maddəsinin 1-ci hissəsinə uyğun hesab olunsun".

"Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il 2 dekabr tarixli qərarı əsasında Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən buraxılması Azərbaycan Respublikası Konstitusiyasının $98.^1$-ci maddəsinə uyğun hesab edilsin. Bununla da Konstitusiya Məhkəməsinin Plenumu Milli Məclisin buraxılmasının Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olması barədə qərar qəbul edilib.

Dekabrın 5-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının beşinci çağırış Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzaladı. Sərəncama əsasən, Milli Məclisə növbədənkənar seçkilər 2020-ci il fevralın 9-na təyin edilib.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***